# Tam suveren Azərbaycanın müasir təhsil ocağı




***Qarabağ tarix boyu Azərbaycan elminin inkişafında mühüm rol oynayıb. Burada elmin və mədəniyyətin tərəqqisinə böyük töhfələr verən təhsil ocaqları hər zaman mövcud olub, ənənəvi elm və təhsil mərkəzləri fəaliyyət göstərib və bu mərkəzlərdə yüzlərlə tanınmış şəxsiyyət yetişib. Burada təhsil alan şəxslərin çoxu sonradan elm sahəsində mühüm simalar kimi tanınıblar. Ötən il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra ölkəmiz suverenliyini tam bərpa edib. Bu, həm də Qarabağda elm və təhsil sahəsinin yenidən öz azadlığına qovuşması demək idi. Bir vaxtlar keçmiş xuntanın istinadgahı olan Xankəndi şəhərində Pedaqoji İnstitut yerləşir. Ötən əsrdə ümummilli lider Heydər Əliyevin dəstəyi ilə fəaliyyət göstərən Azərbaycan Dövlət Pedaqoji İnstitutu artıq Qarabağ Universiteti adı ilə ikinci həyatına başlayır.***










Prezident İlham Əliyev ötən ilin 28 noyabr tarixində Qarabağ Universitetinin yaradılması ilə bağlı Sərəncam imzalayıb. Qarabağda ali təhsil ənənəsi uzun illərdir mövcuddur. İlk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi yaradılmış, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərmiş, lakin ərazilərimizin işğalı zamanı fəaliyyətini dayandırmışdır. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində bu bölgələrin yenidən qurulması, davamlı inkişafı və yüksək həyat standartlarının təmin edilməsi üçün genişmiqyaslı bərpa işləri aparılır. Bu çərçivədə Qarabağ Universitetinin yaradılması da zəruri addımlardan biridir. Universitetin qurulması həmin ərazilərin iqtisadi potensialına uyğun olaraq yüksəkixtisaslı kadrların hazırlanmasına mühüm töhfə verəcək. Qarabağ Universiteti təkcə ali təhsil müəssisəsi deyil, həm də bir elmi mərkəz olmağı hədəfləyib. Universitet gənclərin Qarabağa qayıdışına marağını artıracaq, həm də Xankəndi və digər ərazilərdə məskunlaşma prosesinə müsbət təsir göstərəcək. Qarabağ Universitetinin açılması milli dövlətçilik və elm tariximizdə yeni bir mərhələdir. Bu təhsil ocağında Qarabağın tarixi olduğu kimi tədris ediləcək, ermənilər tərəfindən təhrif edilmiş tarix yenidən yazılacaq və dünya ictimaiyyətinə düzgün təqdim olunacaq. Azərbaycanın suveren ərazilərində belə bir universitetin yaradılması beynəlxalq aləmə mühüm mesajdır.

Ötən gün Qarabağa səfəri zamanı Qarabağ Universitetinə baş çəkən və universitetin təmirdən sonra açılışını edən Azərbaycan Prezidenti İlham Əliyev bu tarixin təsadüfi olmadığını qeyd etdi: "Bu gün, eyni zamanda Qarabağ Universitetinin açılışıdır. Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir. Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir və keçən ilin noyabrında müvafiq Sərəncam imzalandı". Ötən ilin bu günü keçirilən antiterror tədbirlərindən sonra Azərbaycanın tam olaraq öz suverenliyini bərpa etməsi, bu gün isə suverenliyini rəsmi dövlət günü kimi qeyd etdiyi bir vaxtda Qarabağ Universitetinin təhsil ilinə tam hazır olması düşmənə və onun havadarlarına mühüm mesajdır. Ölkəmiz 30 il boyunca işğalda olan torpaqlarını böyük siyasi elmlə, xüsusi ustalıqla ilk olaraq beynəlxalq aləmdə Azərbaycan əraziləri olduğunu təsdiq etdirdi. Daha sonra isə hərb elminin incəliklərinə bələd olan Azərbaycan Ordusu torpaqlarımızı düşmən caynağından azad etdi. Bütün bunlar isə cənab İlham Əliyevin Azərbaycana "44+23" töhfəsi idi. Məhz bu gün Qarabağ Universitetində ilk olaraq təhsil alacaq 1200 tələbə ölkə başçımızın qətiyyət və uğur yolunun yolçuları olacaqlar. Qarabağ Universiteti Azərbaycan elm məbədlərindən biri olacaq.



**Təhsil eksperti Kamran Əsədov** Qarabağ Universitetinin yaradılmasının Azərbaycan və region üçün çoxşaxəli əhəmiyyətə malik olduğunu bildirib: "Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu ali təhsil müəssisəsi yalnız akademik təhsil verməklə kifayətlənməyəcək, həm də Azərbaycanın təhsil, sosial, iqtisadi və mədəni inkişafında önəmli rol oynayacaq. Gəlin bu universitetin potensial təsirlərini bir neçə aspektdən təhlil edək:

## Təhsil sahəsinə töhfəsi

Qarabağ Universiteti Azərbaycanın aparıcı ali təhsil müəssisələrindən birinə çevrilmək məqsədilə yaradılmışdır. Bu, Azərbaycanda təhsilin səviyyəsini qaldırmaqla yanaşı, regionda beynəlxalq səviyyədə rəqabət apara bilən bir universitet formalaşdıracaq.

Elmi-tədqiqat potensialı: Qarabağ Universiteti elmi tədqiqatlara xüsusi diqqət yetirməklə regionda tədqiqat mərkəzi rolunu oynaya bilər. Bu, Azərbaycanın elm sahəsində mövqeyini gücləndirə, innovasiyaların və texnoloji inkişafın təkanverici qüvvəsinə çevrilə bilər.

Müasir tədris infrastrukturu: Universitet üçün nəzərdə tutulan yeni tədris korpusları və yataqxanalar təhsil şəraitinin yüksək səviyyədə olmasını təmin edəcək. Bu da tələbələrin komfortlu və hərtərəfli inkişafı üçün şərait yaradacaq.

Regiondan olan gənclərin təhsili: Qarabağ Universiteti regionda yaşayan gənclərə keyfiyyətli təhsil imkanı verərək, bölgənin təhsil səviyyəsini yüksəldə bilər. Bu da bölgədən daha çox təhsilli və ixtisaslı mütəxəssislərin yetişməsinə şərait yaradacaq.

## İqtisadi inkişaf

Qarabağ Universiteti həm də regionun iqtisadi inkişafına mühüm təsir göstərəcək. Belə ki, universitet regionda iqtisadi canlanma üçün bir təkanverici qüvvə rolunu oynayacaq.

İş yerlərinin yaradılması: Universitetdə akademik heyət, inzibati personal və texniki xidmətlər üçün iş yerlərinin yaradılması regionda məşğulluğu artıracaq.

Yerli iqtisadiyyata töhfə: Universitetin tələbə və müəllim heyətinin sayı artdıqca, regionda xidmət sektorunun, xüsusilə kirayə mənzil, ticarət, ictimai iaşə kimi sahələrin inkişafına səbəb olacaq. Bu, həmçinin Qarabağın turizm potensialını artıracaq.

## Sosial və mədəni inkişaf

Qarabağ Universiteti yalnız akademik biliklərin deyil, eyni zamanda sosial və mədəni dəyərlərin formalaşdığı bir mərkəz olacaq.

Multikultural dəyərlərin inkişafı: Qarabağ regionunun tarixi və mədəni dəyərlərinin öyrənilməsi və dünyaya tanıdılması üçün universitet xüsusi bir platforma ola bilər. Bu da Azərbaycanın mədəni irsinin beynəlxalq səviyyədə tanıdılmasına xidmət edəcək.

Qarabağın bərpasında rolu: Universitetin yerləşdiyi ərazi postkonflikt bölgəsidir. Burada elmi, sosial və humanitar tədqiqatların həyata keçirilməsi Qarabağın sosial reabilitasiyasına dəstək verə bilər.

## Beynəlxalq əlaqələrin qurulması

Prezident İlham Əliyevin Qarabağ Universitetini Azərbaycanın aparıcı universitetlərindən birinə çevirmək istəyini nəzərə alsaq, universitet beynəlxalq əməkdaşlıq üçün açıq olacaq. Xarici universitetlərlə mübadilə proqramları, beynəlxalq tələbə və müəllim heyəti ilə əlaqələr universitetin regional və qlobal səviyyədə nüfuzunu artıracaq.

## Azərbaycanın təhsil strategiyasında rolu

Qarabağ Universiteti Azərbaycanın təhsil strategiyasında əhəmiyyətli həlqəyə çevriləcək. Təmayülləşmə və müasir təhsil modellərinin tətbiqi innovativ tədris metodlarının inkişafına zəmin yaradacaq. Bu da ölkədə ali təhsilin keyfiyyətini daha da yüksəldəcək.

Beləliklə, Qarabağ Universiteti təkcə təhsil sahəsində deyil, həm də Azərbaycanın regionlar üzrə bərpa strategiyasında da mühüm rol oynayacaq. İqtisadi, sosial və mədəni inkişafın təkanverici qüvvəsi kimi çıxış edəcək bu təhsil ocağı, eyni zamanda Azərbaycanın beynəlxalq səviyyədə təhsil sahəsindəki mövqeyini daha da gücləndirə bilər. Gələcəkdə bu universitetdən məzun olacaq tələbələrin Qarabağın inkişafına və ümumiyyətlə, Azərbaycanın iqtisadiyyatına böyük töhfə verəcəyi gözlənilir".



**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının kafedra müdiri Mayıl Alıcanov** bildirib ki, müstəqil Azərbaycanın suveren ərazisində, Qarabağ diyarında möhtəşəm bir təhsil ocağı fəaliyyətə başlayır: "Cənab Prezident İlham Əliyevin Qarabağ Universitetinin təsis edilməsi ilə bağlı sərəncamı xalqın hər bir fərdi tərəfindən sevinclə qarşılandı. Gənc və milli kadrların yetişməsində Qarabağ Universitetinin əsaslı fəaliyyətini yaxın zamanda hər kəs görəcək.

Xankəndidəki Pedaqoji İnstitutda çalışarkən soydaşlarımızın diskriminasiyasının dəfələrlə şahidi olmuşam. 1988-ci ildə fiziki-mənəvi təzyiqlər altında şəhəri tərk etmək məcburiyyətində qalan təhsil ocağının müəllim və tələbə heyəti də bunun şahidi olub. Xatırlayıram ki, həmin dövrdə institutun rektoru vəzifəsində erməni Stefan Dadayan çalışırdı və o mənə demişdi ki, Xankəndini ələ keçirmək məsələsini biz 1970-ci illərdən planlamışıq. Xüsusilə Pedaqoji İnstitutun ələ keçirilməsi üçün onlar var gücləri ilə çalışırdılar. Şübhəsiz, ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə bu, mümkün deyildi. Lakin əfsuslar olsun ki, siyasi hərc-mərclik ucbatından gözəl Qarabağ diyarını əldən vermişdik.

Ermənilər azərbaycanlıları bu təhsil ocağından kənarlaşdırmaqla yanaşı, institutun adını saxtalaşdıraraq dəyişdirmişdilər. O dövrdə bu ali təhsil ocağı fəaliyyətini Gəncədə davam etdirməli olsa da, müəllim və tələbələr təşəbbüs irəli sürdülər ki, Xankəndi Pedaqoji İnstitutu Qarabağ ərazisində, heç olmasa, Şuşada fəaliyyətini davam etdirsin. Bundan sonra 1989-cu ildə Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan bölməsi əsasında Azərbaycan İnstitutunun Şuşa fakültəsi yaradıldı. 2000-ci ildə sözügedən institutun Şuşa filialı ləğv edildikdən sonra onun bazası əsasında Ağcabədi filialı yaradıldı. Ümid edirik ki, Qarabağ Universiteti qalib dövlətin elm məbədi olaraq dünyanın təhsil məkanına öz imzasını atacaq".

Xankəndidə yerləşən Qarabağ Universitetində ilk növbədə altı fakültə yaradılıb. Ölkə başçımız ötən gün çıxışında qeyd etdi ki, növbəti illərdə tibb fakültəsi də yaradılacaq. Xocalıda aqrar elmlər fakültəsi, Şuşada turizm fakültəsi fəaliyyət göstərəcək. Yəni bu, bir neçə şəhəri birləşdirən universitet olacaq. Əlbəttə ki, Qarabağa qayıdacaq keçmiş köçkünlər, onların uşaqları burada oxuyacaq və ölkəmizin hər bir yerindən gənclər buraya gələcəklər. Universitetdə 2024-2025-ci tədris ilinə sentyabrın 23-də start veriləcək. Qarabağ Universiteti yeni dövrün tam başlanğıcındadır. Buna baxmayaraq, sözügedən elm ocağının yaxın gələcəkdə Azərbaycanın təhsil brendi olması hədəflənib, ölkənin top universitetlərindən biri olması əsas məqsəd olaraq qarşıya qoyulub. Qarabağ Universiteti ən yeni təhsil modelləri tətbiq olunmaqla Azərbaycanın elm sahəsinin yeni dövrünün bünövrəsini qoyur.

**Tacir SADIQOV,**
**Nurlan ABDALOV,**
**"Respublika".**